

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 30 (23.917)

*15 fevral 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağcabədi rayonuna səfər ediblər. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzülərək, ulu öndərin xatirəsi dərin ehtiramla yad edilib. Səfər çərçivəsində "Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanışlıq olub. Dövlətimizin başçısı yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyasının açılışını edib, yarımstansiyanı işə salıb. Həmin gün Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin, Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun yenidənqurmadan sonra açılışları olub.

* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam rayonuna da səfər ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 14 fevral tarixli Sərəncamı ilə xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir qrup hərbi qulluqçusu və mülki işçisi təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları da vardır.

**Şükürlü Lətif Canbağış oğlu – mayor**

**Vəliyev Nüsrət Musa oğlu – mayor**

**Niftəliyev Habil Cəfər oğlu – kapitan**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin yeni inzibati binası istifadəyə verilib

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycanda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi prosesi uğurla gedir... Bu sahədə aparılan islahatlar, əldə edilmiş nailiyyətlər Azərbaycanda məhkəmə-hüquq sisteminin möhkəmlənməsinə, şəffaflığın artırılmasına gətirib çıxarmışdır".*** Muxtar respublikada da həyata keçirilən məhkəmə-hüquq islahatları bu sahədə fəaliyyətin müasirləşdirilməsinə, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına səbəb olmuş, müasir infrastruktur yaradılmışdır.

Fevralın 14-də Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin yeni inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında Ali Məclis Sədrinin rəhbərliyi altında məhkəmə sistemində geniş islahatlar aparılmış, vətəndaşların məhkəmə hakimiyyətinə olan etimadının yüksəldilməsi üçün zəruri olan tədbirlər görülmüşdür. Hüquq institutlarının təkmilləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, eləcə də məhkəmələrin fəaliyyətində yeni texnologiyaların tətbiqi sahəsində də mühüm işlər həyata keçirilmişdir. Məhkəmələrdə "Elektron məhkəmə-informasiya sistemi"nin tətbiq edilməsi vətəndaşların, o cümlədən sahibkarlıq subyektlərinin daha asan və rahat şəkildə məhkəmələrə müraciət etmələrinə şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi ləğv edilmiş, ayrı-ayrılıqda müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi və Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi yaradılmışdır. Bu gün istifadəyə verilən Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin inzibati binası muxtar respublikada fəaliyyət göstərən məhkəmə orqanlarının daha da inkişaf



etdirilməsi üzrə vahid hüquqi konsepsiyanın uğurlu davamı olmaqla ədalət mühakiməsinin, işlərə daha keyfiyyətlə baxılmasına, vətəndaşlara yüksək səviyyədə hüquqi xidmət göstərilməsinə geniş imkanlar verəcəkdir. Qasım Əliyev yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün hakim və məhkəmə işçiləri adından minnətdarlıq etmiş və bundan sonra da səylə çalışacaqlarına söz vermişdir.

Kommersiya Məhkəməsi Aparatının baş məsləhətçisi Aynur Cəfərova çıxış edərək demişdir: "Muxtar respublikada məhkəmə orqanları sisteminə və bu orqanlarda çalışan əməkdaşlara hərtərəfli qayğı göstərilir. Yeni yaradılmasına baxmayaraq, Kommersiya Məhkəməsi üçün müasir və hər cür şəraitə malik inzibati binanın istifadəyə verilməsi də bu qayğının bariz nümunəsidir. Muxtar respublikada gənclərə göstərilən dövlət qayğısı məni də ruhlandırmış, yaradılan şəffaf iş şəraitindən istifadə edərək digər hüquqşünas həmkarlarım kimi məhkəmə sistemində işə qəbul olunmuşam. Xoşbəxtəm ki, məhz Ali Məclis Sədrinin rəhbərlik etdiyi dövrdə həm ali təhsil almış, həm də işlə təmin olunmuşam. Yaradılan şəraitə görə kollektiv adından minnətdarlığımızı bildirir və əmin edirik ki, ədalət mühakiməsinin keyfiyyətinin artırılması üçün səylə çalışacaq, Ali Məclis Sədrinin tövsiyə və tapşırıqları bundan sonra da əsas fəaliyyət istiqamətimiz olacaq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin yeni inzibati binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Hər bir vətəndaşın hüquqlarını qorumaq bizim vəzifəmizdir"*** fikirlərini xatırladaraq demişdir: Ölkəmizdə insanların hüquqlarının qorunması sahəsində lazımi qanunvericilik bazası yaradılmış, müvafiq dövlət qurumları formalaşmışdır. Azərbaycan Respublikası Prezidentinin "İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" 2019-cu il 19 iyul tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi ləğv edilmiş, inzibati və kommersiya məhkəmələri formalaşdırılmışdır. Muxtar respublikada da kommersiya sahəsindəki aktivlik nəzərə alınaraq Kommersiya Məhkəməsi yaradılmışdır. Bu gün istifadəyə verilən inzibati binada kollektiv üçün lazımi iş şəraiti vardır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada 2300-dən çox hüquqi, 36 mindən artıq fiziki şəxs mövcuddur. Kifayət qədər iş potensialı vardır. Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi də Naxçıvan Muxtar Respublikası ərazisində hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər arasında olan və onların sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlərində düzgün qərarların qəbul olunması məqsədilə yaradılmışdır. Qısa müddət ərzində kollektiv formalaşmış və lazımi iş şəraiti ilə təmin edilmişdir. Kollektiv isə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, bu sahədəki mübahisələr həll olunmalı və ədalətli qərarlar qəbul olunmalıdır.

"Ədalət o zaman bərpa olunur ki, haqlı haqqını, haqsız cəzasını alır", – deyən Ali Məclisin Sədri muxtar respublikada kommersiya sahəsində olan bütün işlərə, müraciətlərə





*Ardı 2-ci səhifədə*

ədalətli baxılacağına və ədalətli qərarlar çıxarılacağına əminliyini bildirmiş, kollektivə fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra binaya baxış olmuşdur. Bildirilmişdir ki, Kommersiya Məhkəməsinin yeni inzibati binası məhkəmə orqanlarının özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla inşa edilmiş, burada həm hakimlərin, məhkəmə işçilərinin, eləcə də vəkillərin fəaliyyət göstərməsi, həm də vətəndaşların müraciət etməsi və məhkəmə xidmətlərindən faydalanması üçün lazımi şərait yaradılmışdır. İkimərtəbəli inzibati binanın birinci mərtəbəsində məhkəmə zalı, müşavirə, şahid, vəkil, 2 icra məmuru, 18 iş və texniki otaq yerləşir. İkinci mərtəbədə isə 38 yerlik iclas zalı, 2 hakim, dəftərxana və 15 iş otağı vardır.

Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Məhkəmə zalında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan "AzFemida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılmışdır.

Bina istilik və soyutma sistemləri ilə təchiz edilmiş, ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

Ali Məclisin Sədri qurulanların qorunması və maarifləndirici tədbirlərin keçirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvanda inkişaf kənddən başlayır

***Muxtar respublika kəndlərinin müasir quruculuğuna, əhalisinin rifahına, "smart-ağıllı model" tətbiqinə görə də Azərbaycanda lider, rekordçu bölgədir***



*Naxçıvanda şəhər mərkəzindən bölgələrə doğru – coğrafi xəritədə məmləkətimizin ən hündür yüksəklikləri kimi əks olunan zirvələrdə qərarlaşmış dağ kəndlərinə gedərkən ətrafımızda sarı rəngli boruların da bizimlə birgə davamlı yol aldığını görürük...*

2000-2500 metr hündürlükdə olan yaşayış məntəqələrinə doğru şəhərdən keyfiyyətli asfalt yol və bu qaz boruları gedir...

Bir anlıq ötən əsrin 90-cı illərinin Naxçıvanının blokadalı həyatı barədə unudulmaz ağrılı faktları yada salıram: işıq və qazın kəsilməsi səbəbindən şəhər, qəsəbə və kəndlərin zülmətə bürünməsi, amansız şaxtada qızınmaq üçün həyətdəki sonuncu ağacların baltalanması, nəinki işdə, məktəbdə, hətta mənzillərdə belə, insanların paltoda yaşaması...

Amma indi mənfi 20 dərəcə şaxtada Naxçıvanın ən ucqar kəndlərinin ən yüksəklikdəki evlərində olarkən mənzildəki müsbət 30 dərəcəlik isti ilə qonaqpərvərliyin hərarətinə birgə qızınırıq...

Bu sarı borular yalnız muxtar respublikanın 100 faiz (!) qazlaşdırılmasının isbatı deyil, zənnimcə, elə yeni Naxçıvanın inkişafının, rifahının, rahatlaşan və firavanlaşan həyatının canlı abidəsidir, möhtəşəm rəmzidir...


*Xanəgah kəndi*


*Çərçiboğan kəndi*


*Vənənd kəndi*

### *Uçqar coğrafi məkan milli yüksəlişin mərkəzinə çevrilir*

"Ucqar" məfhumunun izahı, şübhəsiz ki, coğrafi təyinatlıdır. Amma daha çox məcazi mənada işlədirik, geriliyi, ətaləti ifadə edirik...

Naxçıvan coğrafi anlamda, əlbəttə ki, ucqardır, Azərbaycanın cənub-qərb sərhədlərinin keçdiyi son məkanımızdır...

Amma Naxçıvana, hətta coğrafi anlamda belə, ucqar deməyə dilimiz gəlmir, bunun haqsızlıq, səhv olduğunu düşünürük...

Muxtar respublikada sosial tərəqqidən iqtisadi yüksəlişə, təhsildən infrastruktura, aqrar sektordan innovasiyalı sənayeyə, bir sözlə, inkişafın bütün sahələri üzrə Prezident cənab İlham Əliyevin təbirincə desək, Azərbaycanın liderlik nümunəsi yaradılıb.

Ucqar coğrafi məkan milli yüksəlişin mərkəzinə çevrilir...

Hər bir ölkənin, vilayətin əsl siması, inkişafın real göstəricisi onun paytaxtı, əsas şəhərləri deyil, məhz əyalətləri, kəndləridir. Əgər tərəqqi, rifah meqopolislərlə məhdudlaşırsa, bunun bölgələrdə əksi yoxdursa, demək, yüksəliş də dar çərçivədədir, həm də dayanıqlı deyil.

Azərbaycanın birmənalı olaraq Qafqazın, çoxsaylı parametrlərdə isə MDB-nin və Şərqi Avropanın lider ölkəsi olduğu həqiqətini onun elə bir bölgəsində – Naxçıvanın timsalında daha aydın görmək olar. Yəni inkişaf yalnız paytaxt Bakıda deyil, müəyyən istiqamətlərdə, hətta onu üstələyən blokadada yaşayan Naxçıvandadır!

Naxçıvanın inkişafının əsl miqyasını, real mənzərəsini də məhz onun kəndlərində gördük. Hələ səfərdən öncə Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov bizə muxtar respublikanın kəndlərində daha çox olmağı tövsiyə etmişdi: "Əsl Naxçıvan, əsl inkişaf, əsl rifah, əsl quruculuq məhz kəndlərdədir. Avtomobilinizi xəbər etmədən istənilən dağ kəndinə sürdürün, ora ilə, insanlarla tanış olun. Görün oradakı yaşayış səviyyəsi, sosial infrastrukturlar harada var?! Görün Naxçıvan kəndləri dilimizdən düşməyən Avropa kəndlərindən geri qalırmı?! Görün Prezident cənab İlham Əliyev Naxçıvanda hər kəndin timsalında necə bir cənnət, inkişaf mərkəzi yaradıb. Görün Ali Məclis Sədri Naxçıvanda kəndlərə necə müasir şəhər siması gətirib. Görün sadə, zəhmətkeş naxçıvanlılar öz kəndlərini necə sevgi, dəyanət və əzmlə qurub, yaradırlar..."

Həm də filoloq alim olan Bəxtiyar müəllimin hərarətlə, yüksək emosionallıqla söylədiyi bu sözləri iddialı qənaət kimi qarşıladıq. Sözün düzü, bir az da sanki şişirtmə təsiri bağışlayırdı. Amma səfər müddətində olduğumuz kəndlərdə heyrətlə, məhz heyrətlə müşahidə etdiyimiz real mənzərə Bəxtiyar Əsgərovun, əslində, hələ çox təvazökar olduğunu göstərdi...

### *Ailə təsərrüfatları böyük səmərə verir*

Nuhun bina saldığı bu müqəddəs məkan hər tərəfdən dağların qoynundadır. Naxçıvanın ərazisi hündür dağlarla əhatələnmiş dərəni xatırladır. 5,5 min kvadratkilometrlik ərazinin 4,2 min kvadratkilometrliyini, yəni 76 faizini dağlar tutur.

Bu baxımdan, Naxçıvan kəndlərinin mütləq əksəriyyəti "dağ kəndləri" kateqoriyasına aid edilir. Ümumilikdə, muxtar respublikada 203 kənd və 9 qəsəbə mövcuddur. Əhalinin 65 faizi, yəni 300 minə yaxın insan kəndlərdə məskunlaşıb.



Zəngəzur, Dərələyəz, Saraybulaq sıra dağları boyunca Ermənistanla 246 kilometrlik sərhəd xətti uzanır və bu hüdudda da xeyli kənd var. Muxtar respublikanın dünənki təcavüzkar, bugünkü məğlub dövlətlə üç tərəfdən həmsərhəd olması onun kənd əhalisi üçün əlavə problem, çətinlik, qayğı yaradır.

Bu baxımdan Naxçıvanda uzun illərdir, inkişafın əsas prioriteti kimi kəndlər nəzərə alınır. Müasir Naxçıvan kəndləri qaz, enerji, su təminatı ilə tam təchiz edilən, xəstəxana, ambulatoriya, məktəb və digər zəruri infrastruktur olan, hətta məhəllələrarası yolları belə, asfaltlanan, alternativ enerji mənbələrindən istifadə edən, dövlət subsidiyaları və yardımı ilə zəhməti hesabına təsərrüfatının bərəkətini ildən-ilə artıran, məhsulunu satmaq üçün daim bazarı olan, sakinləri kütləvi şəkildə geri dönən, ən müasir informasiya texnologiyalarından istifadə edən, iş problemi yaşamayan, "smart-ağıllı kənd" modelini mənimsəyən modern yaşayış məntəqələridir.

Naxçıvan yalnız inkişaf dinamikası baxımından deyil, həm də kəndlərinin abadlığına, quruculuğuna, rifahına, müasirliyinə, təminatına görə Azərbaycanda lider, rekordçu bölgədir!

Kəndlərdə evlərin təmiri, dam örtüklərinin dəyişdirilməsi, sosial kommunikasiyaların təmini bütünlüklə muxtar respublikanın rəsmi strukturları tərəfindən icra olunub. Kəndlərin əksəriyyətində, hətta tövlələr belə, həyətlərdən yığışdırılıb, əhaliyə mərkəzləşdirilmiş qaydada yeni, daha müasir təchizatlı tövlələr verilib. Bu isə sakinlərə həm rahatlıq yaradıb, həm yersiz məsrəflərdən azad edib, həm də heyvandarlığın artımına töhfə verib. Həmsöhbət olduğumuz insanlar bu faktı dönə-dönə böyük nailiyyət kimi qeyd edirdilər.

Onilliklər öncə boşalmış Naxçıvan kəndlərinin indi qışında da qələbəlik olur, artıq kəndlərini tərk edənlər yoxdur. Ümumiyyətlə, kəndlərdə bütün yaş nəsillərinin təmsilçiləri – uşaqlar, gənclər, qocalar yaşayır.

Əhalinin fəaliyyət yönümü kənd təsərrüfatının ənənəvi sahələri olsa da, burada yeni təşəbbüslər icra olunur, aqrar sektorun müasir innovativ istiqamətləri sınaqdan uğurla çıxarılır. Müstəqillik illərində kənd təsərrüfatı məhsullarının həcmi burada 15 dəfə, ötən il isə 5,3 faiz artıb.

Muxtar respublikada kənd təsərrüfatının inkişafında ailə təsərrüfatlarının da mühüm rolu var. Dövlət tərəfindən bu fəaliyyət sahəsinin stimullaşdırılması ilə bağlı atılan addımlar muxtar respublikada ailə təsərrüfatlarının sayının artmasına və inkişafına münbit şərait yaradıb. 5 il öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə ailə təsərrüfatlarının inkişaf istiqamətləri müəyyən edilib. Hazırda muxtar respublikada mindən çox ixtisaslaşmış iri ailə təsərrüfatı fəaliyyət göstərir. Qeyd edək ki, 2015-ci ilin muxtar respublikada "Kənd təsərrüfatı ili", 2019-cu ilin isə "Ailə təsərrüfatları ili" elan edilməsi aqrar sahənin inkişafına təkan verən məqsədyönlü addımlardan olub.

Ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2021-ci ildə 76 ailə təsərrüfatına 1 milyon 221 min 400 manat dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 5000 ədəd 27 çeşiddə qablaşdırma vasitələri ilə təmin olunub. Ən mühüm istiqamətlərdən biri də ailə təsərrüfatlarında istehsal olunan məhsulların satışına dövlət dəstəyinin göstərilməsidir. Muxtar respublikanın kəndlərində yaradılan müasir infrastruktur, istehsal edilən kənd təsərrüfatı məhsullarının sərbəst bazara çıxarılması imkanları insanların bu sahəyə marağını daha da artırıb. Həmçinin mağaza və marketlərdə ailə təsərrüfatı məhsulları üçün yaradılmış xüsusi bölmələr, ictimai iaşə obyektləri, restoranlar, kafelər, hotel və mehmanxanalarda ailə təsərrüfatı məhsullarının satışının təşkili, qapalı tipli müəssisələr, uşaq bağçaları tərəfindən bu məhsulların alınması, "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsi ailə təsərrüfatlarının inkişaf etdirilməsi sahəsində atılan əhəmiyyətli addımlardandır.

### *Dağ kəndlərinin məktəbləri milli təhsilin uğur bayraqdarlarıdır*

Naxçıvan kəndləri üçün spesifik bir infrastruktur da mövcuddur. Kənd mərkəzi adlanan bina, adətən, üçmərtəbəli olur, kənd

*Ardı 3-cü səhifədə*



Dərvişlər kəndi

icra nümayəndəsindən bələdiyyə üzvlərinə, statistikadan baytarlıq məntəqəsinədək, rabitə evindən arxivə qədər bütün vacib qurumlar burada fəaliyyət göstərir. Kiçik və mobil "ASAN xidmət" modelinin unikallığı odur ki, əhali onu narahat edən problemləri müvafiq qurumların koordinasiyalı yanaşması nəticəsində operativ həll etməyə imkan tapır.

Məsələn, Şahbuz rayonunun Ağbulaq kəndində olarkən bu prosesin necə effektiv işlədiyinə şahid olduq. Ermənistanın Qarakilsə (Sisyan) rayonu ilə həmsərhəd olan, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Dərələyəz və Zəngəzur dağ silsilələri arasında yerləşən bu gözəl dağ kəndində 8 ildir, istifadəyə verilən kənd mərkəzində ünsiyyətdə olduğumuz sakinlər yaradılan şəraitdən çox məmnun idilər. Yuxarıda xatırlatdığımız mərkəzləşdirilmiş tövlələrlə bağlı xüsusi razılıq edən sakinlərlə kəndi bir az dolaşırıq. Məhəllələrarası yolların belə yüksək keyfiyyətlə asfaltlanması bizi, yaxşı mənada,



Şəhriyar kəndi

təəccübləndirir. 100 təsərrüfatın olduğu və 395 nəfərin yaşadığı Ağbulaq kəndində işsiz adamın olmadığı deyildi. Əsas fəaliyyət sahələri heyvandarlıq, arıçılıq, bağçılıq, turizm olan kənddə bir neçə il əvvələ kimi 20-yə qədər ev boş imiş, amma son illər sakinlərinin hamısı Ağbulağa qayıdıb.

Kənddə müasir tələblərə cavab verən məktəb binası, kənd və xidmət mərkəzləri, yeni yol, eləcə də Ağbulaq İstirahət Mərkəzi tikilərək istifadəyə verilib. 2018-ci ilin aprel ayından kənddə abadlıq işlərinə başlanılıb, evlər və yardımçı binaların, elektrik, rabitə və qaz təchizatı sistemi yenidən qurulub. Bu il isə Günəş istilik panelləri veriləcək. Ambulator mərkəz də insanların sağlamlığının keşiyində dayanıb.

"Ağıllı kənd" konseptində fəaliyyət göstərən Ağbulaq ərazisində Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb və bununla da quruculuğun, inkişafın yeni mərhələsi başlayıb. Yeni fəaliyyətə başlayan Ağbulaq İstirahət və Xizək Mərkəzi isə Şahdağdakı istirahət kompleksi ilə yarışacaq səviyyədə, potensialdadır.

Ordubad rayon Vələver, Başkənd və Qoruqlar kəndlərini birləşdirən Vələver kənd inzibati ərazi dairəsində, həmçinin Dırnıs və Vənənd kəndlərində oluruq. 3 mərtəbəli kənd mərkəzləri, 3 mərtəbəli məktəblər, ambulatoriyalar, xidmət mərkəzləri, mədəniyyət evləri, kitabxanalar, rabitə evləri və digər infrastrukturlar, hər addımda müasir abadlıq, quruculuq izləri, asfaltlanmış yollar insanı valeh edir. Bu qədim kəndlərdə tarixiliklə müasirliyin uğurlu harmoniyası, sıx vəhdəti təmin olunub.

Ötən yazımızda Naxçıvan təhsilinin uğurları ilə bağlı faktları sadalayarkən Ordubad təhsilinin nailiyyətlərinə xüsusi toxunmuşduq. 2020-ci ildə I və II mərhələ üzrə buraxılış im-



Payız kəndi

tahanlarında bölgələr üzrə ən yaxşı təhsil göstəricisi məhz Ordubada məxsus idi. Yəni dağ rayonu olan Ordubadın məktəbləri bütün Azərbaycan üzrə lider mövqedə olublar! Ucqar bölgə sayılan Ordubadın şagirdləri Azərbaycan təhsilinin favoriti, avanqardı, bayraqdarı olublar!

Bu şanlı ənənələrin daşıyıcısı və yaradıcısı olan şagirdlərlə, müəllimlərlə görüşdük. Qazandıqları uğurla kifayətlənmək niyyətində deyillər, nailiyyət bayrağını daim daşımağa iddialıdırlar! Bu iddialarını təmin etməyə isə təcrübələri, bacarıqları, iradələri və məsuliyyətləri var!

Hər məktəbin kitabxanasında 10 mindən artıq kitab var ki, onların da yarısı bədii ədəbiyyatdır, özü də buralar şagirdlərin sevimli məkanıdır. STEAM kabinetləri, biologiya, kimya, fizika laboratoriyaları, kompüter otaqları, elektron lövhəli siniflər, şahmat sinifləri, idman zalları, açıq idman qurğuları, fərdi qazanxana və digər ən müasir təhsil vasitələri ilə təmin olunan məktəblərin müəllim və şagirdləri bu qayğının, etimadın nəticəsini layiqincə doğruldurlar.

### *Etimada sədaqətlə*

Vənənd kəndində 3 mərtəbəli musiqi məktəbini görəndə isə növbəti dəfə heyrətləndik.

Dağ kəndi və 3 mərtəbəli musiqi məktəbi!..

34 sinif otağı, konsert zalı, musiqi ədəbiyyatı və oxunması zəruri olan kitablarla təmin edilmiş kitabxana, musiqi alətlərinin təmiri otağı olan binada 3 növbəli musiqi dərsi keçilir! Yəni tələbat böyükdür!

Öyrənirik ki, Naxçıvan kəndlərində belə möhtəşəm musiqi məktəblərinin sayı çoxdur və hər biri də gərgin iş qrafikinə malikdir. Unutmayaq, valideyn övladına, adətən, o zaman



Nəcəfəlidizə kəndi

musiqi təhsili verər ki, ailəsini yaxşı təmin edib, rahat və firavan həyat qurub, qayğıları azalıb və indi uşaqlarının asudə vaxtının daha səmərəli keçməsini düşünür...

Klassik musiqi ilə muğamın, sazla tarın, qarmonla fortepianonun sədası bir-birinə qarışaraq dağlarda əks-səda verir...

Dağların o üzü isə düşməndir...

Orada kəndlər tam boşalıb, rayon mərkəzində isə səfalət, durğunluq, tənəzzül hökm sürür, insanlar evlərini kütləvi şəkildə tərk edir...

Dağın biz tərəfində isə rayon mərkəzlərini bir kənara qoyaq, hətta kəndlər belə, qəsəbə, şəhər timsalında tikilir, qurulur, abadlaşır, insanlar yurdlarına qayıdır...

Bu dağlar yalnız Azərbaycanla Ermənistanı, Naxçıvanla qədim oğuz yurdlarını ayırmır, həm də intibahla böhranın, rifahla səfalətin, Zəfərlə təslimçiliyin, şən musiqi ilə matəm avazının sərhədidir!

Prezident cənab İlham Əliyev Naxçıvanın kəndlərini məhz düşmənə gözdağı kimi inkişafın zirvələrinə ucaldır, qurur, cənnətə çevirir!

Muxtar respublika rəhbəri də Prezident fədakarlığını davam etdirərək yüksək məsuliyyət və tələbkarlıqla kəndlərə tərəqqi gətirir, abadlaşdırır, Naxçıvanda "Avropa kəndi" konseptini uğurla tətbiq edir!

Ancaq ən böyük qəhrəmanlar bu diyarın sadə insanlarıdır, zəhmətkeş naxçıvanlılardır! Blokadanın məhrumiyyətlərini, acınacaqlı, böhranlı illərini mətinliklə, ləyaqətlə yaşadılar, sınmadılar, gileylənmədilər...

Ulu öndərə və Prezident cənab İlham Əliyevə böyük sədaqətlə bu yurdu yaşatdılar, çətinliklə yenidən qurdular, əziyyətlə tərəqqi yoluna çıxartdılar, indi isə nailiyyətin bəhrəsini şükranlıqla yaşayırlar...

*Naxçıvan ulu öndər Heydər Əliyevin arzuladığı, planlaşdırdığı kimi böyük yüksəliş dövrünə qədəm qoyub...*

*Qədim Naxçıvanın Prezident cənab İlham Əliyevin müəllifliyi ilə yeni inkişaf dastanı yazılır...*

*Prezident himayəsi və qayğısı ilə muxtar respublika rəhbərinin məqsədyönlü düzgün fəaliyyəti nəticəsində zəhmətkeş naxçıvanlılar öz yurdlarını Qafqazın ən güclü quruculuq və abadlıq diyarına çevirirlər...*

*Yeni Naxçıvanın uğur formulu da elə budur...*

*Etimada sədaqətlə...*

**İxtiyar HÜSEYNLİ**
***"Azərbaycan" qəzeti, 12 fevral 2022-ci il***
***Bakı-Naxçıvan-Bakı***

## Əhalinin sağlamlığı diqqətdə saxlanılır



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini ötən ay da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqətdə saxlanılıb.*

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, COVID-19 virusuna qarşı 7000 doza "Sinovac" vaksini, 600 doza "Pfizer" vaksini və 3000 doza mövsümi qrip üçün vaksin, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları gətirilib.

Ötən ay tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilib. 2 həkim Bakı şəhərində kurs, 3 həkim və 1 orta tibb işçisi Naxçıvan şəhər tibb müəssisələrində təcrübə keçmələri üçün göndərilib.

Həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini yanvar ayında da davam etdiriblər. Azərbaycan Respublikası Respublika Kliniki Xəstəxanasının 21 nəfərdən ibarət həkim heyəti humanitar aksiya çərçivəsində Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkimləri ilə birgə əhalinin kütləvi müayinə və müalicəsini həyata keçirib. 1724 nəfər 3 min 218 tibbi müayinə ilə əhatə olunub, 82 nəfər üzərində cərrahi əməliyyat aparılıb.

Şahbuz Rayon Mərkəzi Xəstəxanasında Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzindən dəvət olunmuş ginekoloq tərəfindən 85 qadında müayinələr aparılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının yaratdığı həkim briqadası Ordubad rayonunda 44 uşaqda sünnət əməliyyatı yerinə yetirib. Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında 6 nəfər müayinələrə cəlb olunub, 6 nəfərdə cərrahi müdaxilə həyata keçirilib. Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən də xəstəxanada 20 nəfərdə müayinə, 5 nəfərdə cərrahiyyə əməliyyatı icra edilib.

Hesabat ayında 1-5-ci sinif şagirdlərindən 4 min 410 uşağa mantu sınağı qoyulub, 203 uşaqda şübhəli, 242 uşaqda müsbət, 7 uşaqda hiperergiya aşkar olunub. Mantu sınağı müsbət olan uşaqlar Ağciyər Xəstəlikləri Dispanserində müayinələrdən keçirilib, 37 uşağa profilaktika məqsədilə dərman preparatı verilib.

Yanvar ayında Naxçıvan Muxtar Respublika Xəstəxanasının yeni vebsaytının təqdimatı olub.

COVID-19 xəstəliyinə qarşı profilaktika tədbiri olaraq ötən ay 1071 nəfərdə I, 3 min 182 nəfərdə II, 1425 nəfərdə III, 21 nəfərdə IV tur vaksinasiya aparılıb. Tibb işçilərindən 248-i hepatitə, risk qruplarından 141 nəfər mövsümi qripə qarşı peyvəndlənib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2022-ci ilin yanvar ayı ərzində muxtar respublika üzrə 14 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 2 nəfəri isə Naxçıvan Muxtar Respublikası Əlillərin Bərpa Mərkəzinə reabilitasiya müalicəsinə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən yanvar ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 5 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Operativ vergi nəzarəti tədbirləri zamanı həmin vergiödəyicilərində "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğulolma faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Rəssamlar Birliyinin saytı yenilənib



Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda birliyin yenilənmiş saytının təqdimatı olub. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva tədbirdə çıxış edərək deyib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim diyar Naxçıvan muxtariyyətinin 98 illiyini yaşamaqdadır. Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyev yolunun qətiyyət və uğurla davam etdirilməsi nəticəsində dinamik inkişafdadır.

Qeyd olunub ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, rəssamlıq sahəsində də böyük inkişaf vardır. Bu da onunla bağlıdır ki, rəssamlarımız, sənət adamlarımız yüksək rifah və qayğı ilə əhatə ediliblər. Belə ki, respublikamızda yeni innovasiyalardan istifadə rəssamların inkişafında və fəaliyyətində müsbət nəticələr göstərməkdədir. Belə tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin ilk saytı – veb səhifəsinin 2011-ci ildə yaradılması idi.

Bildirilib ki, Ali Məclis Sədrinin 2019-cu il 25 may tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəssamlar Birliyinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, Naxçıvan rəssamlıq sənətinin inkişafına dəstək olan rəsm festivallarının təşkili və albom-kataloqların, internet resurslarının hazırlanması məqsədilə Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Rəssamlar Birliyinə 15 (on beş) min manat vəsait ayrılıbdır. Həmin vəsait Sərəncamda nəzərdə tutulan tədbirlərin həllinə yönəldilib.

Diqqətə çatdırılıb ki, Rəssamlar Birliyinin əvvəlki internet səhifəsi müasir tələblərə cavab vermədiyindən dizayn, quruluş və məzmun baxımından yeni formatda hazırlanması zərurəti yarandığından Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən internet səhifəsi müasir üslubda yenidən hazırlanıb.

Ülviyyə Həmzəyeva çıxışının sonunda yaradılan şəraitə görə muxtar respublika rəhbərinə rəssamlar adından minnətdarlığını bildirib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin *nrb.nakhchivan.az* domen adı ilə fəaliyyət göstərən internet səhifəsinin SSL(təhlükəsizlik) sertifikatı ilə təmin olunması, saytın optimizasiyası (SEO-Serch Engine Optimization) axtarış sisteminə uyğunlaşdırılıb, Google axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün mütəxəssislər tərəfindən zəruri texniki tədbirlər görülüb, eləcə də domenə bağlı e-poçt ünvanları ilə təmin olunub. Həmçinin Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssisləri tərəfindən birliyə idarəetmə panelinin istifadəsi verilib. Birliyin saytı əsas menyudan ibarətdir və bu menyuda 8 bölmə yerləşir. Sayt iki dildə fəaliyyət göstərəcək.

**✍ Aytac CƏFƏRLİ**

## Azərbaycan çempionatında ilk mərhələ başa çatıb



*Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatının ilkin mərhələsi başa çatıb.*

Son turdan öncə ikinci – final mərhələsinə vəsiqə qazanan üç zəka sahibinin adı məlum idi. 9-cu turdan sonra isə dördüncü və son vəsiqənin sahibi məlum olub. Belə ki, beynəlxalq ustalar İsmayıl Şahəliyev (2380) ilə Murad İbrahimlinin (2418) görüşü "sülh"lə başa çatdıqdan sonra 4 zəka sahibi – Məhəmməd Muradlı, Eltac Səfərli, Murad İbrahimli, Əhməd Əhmədzadə turnir cədvəlində 5,5 xalla 4-7-ci yerləri bölüşdürüblər. Son turda Məhəmməd Muradlı Aydın Süleymanlı, Eltac Səfərli isə Nicat Məmmədov üzərində qələbələr qazanıb. Yarışın əsasnaməsinə əsasən xallar bərabər olan zaman əlavə göstəricilər – qələbələrin sayı, şəxsi görüş və Buhqolts əmsalı tətbiq olunur. İlk göstərici Məhəmməd Muradlı və Murad İbrahimlidə daha yüksək və Buhqolts əmsalı Məhəmməd Muradlıda yaxşı olduğu üçün o, final mərhələsinə 4-cü vəsiqəni təmin edib.

Qeyd edək ki, ilk mərhələdən sonra Vasif Durarbəyli və Misrətdin İsgəndərov 7 xalla turnir cədvəlinin ilk iki pilləsində qərarlaşıblar. Aydın Süleymanlı isə 6 xalla üçüncü yerdədir.

Görüşlərdən sonra Azərbaycan çempionatının ilk mərhələsinin mükafatlandırma mərasimi keçirilib. Yarışın baş hakimi Lütfiyar Rüstəmov bu barədə məlumat verib, finalçıları təbrik edib və digər iştirakçılara karyeralarında uğurlar arzulayıb. Çempionatın əsasnaməsinə əsasən 5-10-cu yerləri tutan şahmatçılar – Murad İbrahimli, Eltac Səfərli, Əhməd Əhmədzadə, Uğur İlyaslı, Xəzər Babazadə və İsmayıl Şahəliyev pul mükafatı ilə təltif olunublar.

Sonra 15-18 fevral tarixləri arasında keçiriləcək Azərbaycan çempionatının yarımfinal mərhələsinin püşkü atılıb. Püşkə əsasən yarımfinalda beynəlxalq usta Məhəmməd Muradlı qrossmeyster Vasif Durarbəyli ilə, beynəlxalq usta Aydın Süleymanlı qrossmeyster Misrətdin İsgəndərovla qarşılaşacaq (adları ilk qeyd olunan şahmatçılar ilk oyunda ağ fiqurlara sahibdirlər).

Qeyd edək ki, iki klassik oyundan sonra qalib müəyyən edilməzsə, rəqiblər nəzarət vaxtı – oyunun sonuna qədər 15 dəqiqə və hər gedişə 10 saniyə əlavə olunmaqla iki oyun və əgər yenə də hesabda bərabərlik olarsa, 5'+3" nəzarət vaxtı ilə daha iki oyunda qalibi müəyyən etməyə çalışacaqlar. Sonda bərabərlik halında "Armageddon"da ağlara 5 dəqiqə, qaralara isə 4 dəqiqə nəzarət vaxtı ilə qalibi müəyyən edəcəklər; heç-heçə qaraların qələbəsi kimi qəbul olunur.

Yarımfinalın qalibləri finalda birinci yer, məğlub şahmatçılar 3-cü yer uğrunda mübarizə aparacaqlar.

## Zəka sahibləri: "*Çempionatın yüksək səviyyədə təşkili bizim üçün böyük stimul oldu*"

***Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında artıq yarımfinala yüksələn şahmatçıların adları məlum olub. Püşkün nəticəsinə əsasən yarımfinala yüksələn zəka sahibləri bu gündən etibarən həlledici qarşılaşma üçün mübarizəyə başlayacaqlar. Qeyd edək ki, ölkə çempionatı bir çox şahmatçı üçün müəyyən məqamlarla yaddaşlara həkk olundu. Bu məqamda hansı hissləri keçirdiklərini bilmək üçün onların fikirlərini öyrəndik.***

***Xəzər BABAZADƏ (FIDE ustası):*** "Bir neçə dəfə Naxçıvanda keçirilən beynəlxalq turnirdə iştirak etmişəm. Azərbaycan çempionatında isə bu, muxtar respublikaya ilk səfərimdir. Çempionatın təşkili yüksək səviyyədədir. Təbii ki, bu da bizim üçün əlavə stimuldur. Şahmatçılara göstərilən dövlət qayğısının Naxçıvanda bir daha şahidi olduq. Biz də bundan bəhrələnib uğurlu çıxış etməyə səylə çalışırıq. Cari ildə keçirilən çempionatı özüm üçün uğurlu hesab edə bilmərəm. Çünki əsas məqsədim ilk yarımfinala vəsiqə qazanmaq idi. Lakin son turlarda keçirilən oyunlarda bir qədər səhvlərə yol verdim ki, bu da çempionatı 9-cu pillədə başa vurmağıma səbəb oldu. Yarımfinala yüksələn şahmatçılarımızı təbrik edirəm, onlara uğurlar arzulayıram. Digər tərəfdən Naxçıvanda keçirilən bu çempionat mənim karyeramda, həyatımda xüsusi məqam kimi anılacaq. Belə ki, ölkə birinciliyində artıq beynəlxalq usta normativini doldurdum və bu adı qazandım. Bir daha təşkilatçılara, çempionatda əməyi keçən hər bir şəxsə dərin minnətdarlığımı bildirirəm".





***Vasif DURARBƏYLİ (qrossmeyster):*** "Naxçıvan mənim üçün hər zaman yaddaşımda gözəl xatirələrlə qalan bir məmləkətdir. Ötən il ilk dəfə Bakıdan kənarda keçirilən çempionatda məhz qalib adını mən qazanmışdım və ozamankı müsahibəmdə də bildirmişdim ki, Naxçıvan şahmatın inkişafı, kütləvi hal alması üçün ən ideal məkandır. Çünki burada bu idman növünün inkişafına hərtərəfli qayğı göstərilir. Keçən il Azərbaycan çempionatında 12 ən güclü şahmatçı iştirak edirdi və format bir qədər fərqli idi. Hər bir şahmatçı dairəvi sistem üzrə oynayırdı. Açığı, həmin çempionat hər bir iştirakçı üçün çətin keçmişdi. Builki çempionatda isə 24 şahmatçı mübarizə apardı və təqvimlə, eyni zamanda pandemiya ilə bağlı reqlamentdə bir qədər dəyişikliklər edildi. Bu il də gərgin oyunların şahidi, iştirakçısı olduq. Son tura kimi bilinmirdi yarımfinala kim vəsiqə qazanacaq. Çalışacağam cari çempionatda da uğur qazanım".

**✍ Ceyhun MƏMMƏDOV**

## Vüsal Seyidov milli komandada




Naxçıvan Karate-do Federasiyasının idmançısı Vüsal Seyidov 21 yaşadək karateçilərdən ibarət Azərbaycan milli komandasının heyətinə cəlb edilib. İstedadlı idmançımız bu nailiyyətə yeniyetmə və gənclər arasında keçirilən 22-ci respublika birinciliyindəki uğurlu çıxışı sayəsində nail olub. Belə ki, həmin yarışda 16-17 yaş kateqoriyası üzrə -61 kiloqram çəki dərəcəsində mübarizə aparan Vüsal kumite növündə bürünc medala layiq görülüb.

Qeyd edək ki, 17 yaşlı idmançımız 19 yaşadək karateçilərin Avropa Çempionu, ölkə və beynəlxalq səviyyəli yarışların qalib və mükafatçısıdır. Ali Məclis Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb və Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elan

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi gəncləri "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən könüllü əsaslarla fəaliyyət göstərmək üçün Könüllülük Proqramına dəvət edir.

Gənclər Birliyinin könüllüsü kimi fəaliyyət göstərmək istəyənlər üçün aşağıdakı tələblər müəyyən olunmuşdur:

- *İntizamlılıq*
- *Təşkilatçılıq*
- *Kollektivdə işləmək bacarığı*
- *Operativlik*
- *Təşəbbüskarlıq*
- *Kompüter bacarığı*

Seçim prosesi Seçim Komissiyası tərəfindən iki mərhələdə aparılacaqdır: İlk mərhələdə layihədə iştirak etmək istəyən gənclər elektron ərizə formasını doldurmalıdır. Qənaətbəxş hesab edilən ərizə sahibləri ikinci mərhələyə dəvət ediləcəkdir. İkinci mərhələdə müsahibə vasitəsilə seçim aparılacaqdır. Proqramın tələblərinə cavab verən gənclərə üstünlük veriləcəkdir. Seçim zamanı gender, təhsil müəssisələri və digər amillərə görə balans nəzərə alınacaqdır.

Proqramın təşkili:

Proqram 6 ay müddətində davam edəcəkdir. Könüllülük fəaliyyətini başa çatdırmış və öz öhdəliklərini yerinə yetirmiş könüllülər proqramın sonunda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi tərəfindən sertifikatla təltif olunacaqlar.




***- Qeydiyyat keçidi:***
***https://forms.gle/fuGNY3xRq1LfSE8H7***
***- Əlavə suallar üçün:***
***yapnaxcivangb@gmail.com***

## Fövqəladə hallara qarşı maarifləndirmə işləri görülür

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi yaşayış məntəqələrində qış mövsümündə təbii qaz və elektrik enerjisindən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl olunması, dəm qazından zəhərlənmə hallarının baş vermə səbəbləri və onun qarşısının alınması məqsədilə maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti tədbir Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi ilə birlikdə Qaraçuq kəndində keçirilib.



Naxçıvan şəhərinin kənd icra nümayəndələri, Mənzil İstismar xidmətlərinin, Qaz İstismar İdarəsi və Elektrik Şəbəkəsinin müvafiq vəzifəli şəxslərinin və sakinlərin iştirakı ilə keçirilən tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı Anar Axundov mövsüm ərzində müvafiq sahədə görülən işləri diqqətə çatdırıb.

Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Mirtaleh Seyidov qış mövsümündə vətəndaşlar tərəfindən təbii qaz və elektrik enerjisindən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl olunması və dəm qazından zəhərlənmə hallarının baş verməsi səbəbləri barədə məlumat verib, dəm qazından yaranan zəhərlənmələr, həmçinin yaşayış evlərində dəm qazının olduğunu bildirən cihazın vacibliyi barədə danışıb.

Naxçıvan Şəhər Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin baş polis sahə inspektoru, polis kapitanı Ruslan Hüseynov, Dövlət Yanğın Nəzarəti bölməsinin rəisi, daxili xidmət mayoru Etibar Məmmədov yaşayış məntəqələrində qaz və elektrik təsərrüfatından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl olunması və israfçılıq hallarının qarşısının alınması məqsədilə görülən tədbirlərdən bəhs ediblər.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilməkdədir.*

Ötən ay ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 45 yoxlama-reyd keçirilmiş, qanun pozuntusu qeydə alınmamışdır. Təbiətin qorunması üçün inzibati tədbirlərdən daha çox ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə maarifləndirmə, məlumatlandırma tədbirlərinə xüsusi önəm verilmişdir. Ordubad rayonunun Dırnıs və ətraf kəndlərin nümayəndələrinin iştirakı ilə ekoloji-hüquqi maarifləndirici tədbir keçirilmişdir. Keçirilən maarifləndirmə tədbirlərində ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır.

Ay ərzində Şərur, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 23-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və mərkəzi avtomobil yollarının kənarlarında yerləşən yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Monitorinqlər zamanı bir sıra çatışmazlıqlar da qeydə alınmış, müvafiq tədbirlər görülmüşdür.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında yanvar ayı ərzində Araz çayının və Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülərək analiz aparılmışdır. Analizlərin nəticəsinə əsasən sularda çirklənmə hallarının yol veriləbən qatılıq həddini keçməsi qeydə alınmamışdır.

Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarlarındakı meyvə və üzüm bağlarına 6 ton üzvi gübrə, Əshabi-Kəhf Ziyarətgahının ətrafında və Uzunoba Su Anbarının yuxarı hissəsindəki meyvə bağlarına 300 kiloqram mineral gübrə verilmişdir. Yanvar ayının əvvəllərindən başlayaraq yağan yağıntı ərazilərdə qar örtüyünün artmasına səbəb olmuşdur ki, bu da biotexniki tədbirlərin keçirilməsinə zərurət yaratmışdır. Hesabat ayında, ümumilikdə, biotexniki tədbirlər zamanı ərazilərə 1800 kiloqram daşduz, 120 kip qaba yem və 1100 kiloqramdan çox meyvə-tərəvəz qalığı dağıdılmışdır.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində də davam etdirilmişdir. Hesabat ayında Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə hami ixtisas tələbələrinin və ekologiya könüllülərinin iştirakı ilə Qoruqlar və Milli Parklar gününə həsr edilmiş tədbir keçirilmişdir. Ordubad Dövlət Təbiət yasaqlığı ərazisində keçirilən tədbir zamanı əvvəlcə iştirakçılara ətraflı məlumat verilmiş, sonra gənclər xüsusi binokl vasitəsilə mühafizə olunan təbiət ərazilərində məskunlaşmış bezoar dağ keçiləri və muflonları müşahidə etmişlər. 28 yanvar 2022-ci il tarixdə hami ixtisas tələbələrinin Naxçıvan şəhərində aparılan mühəndis geoloji kəşfiyyat işləri ilə tanış olması da təmin edilmişdir. Burada aparılan buruq qazma və mühəndis geoloji kəşfiyyat işləri haqqında onlara ətraflı məlumat verilmiş, tələbələri maraqlandıran suallar cavablandırılmışdır. Bu tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Feyzullayev Kənan Əbülfət oğlunun adına olan avtomobilin 67-BH-796 nömrəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 146